Hürriyyət

Siyasət

SİZİN ÜÇÜN QƏZET

№17 (3117) 16 - 17 Fevral / 2021-ci il

www.hurriyyet.org; / hurriyyet@mail.ru



# Seçim şansı...

**1804**-cü ildən üzü bəri, düz 216 ildir rus-erməni hərbi birliyi üzərində ikinci böyük qələbə qazanmış, Vətən Müharibəsi dediyimiz, üçüncü Qarabağ Savaşını (birinci qələbə 1920-ci ilin martında olub,ikinci savaşı 1988-1994 uduzmişuq) udan Azərbaycan xalqının yaxşı yaşamaq haqqı vardır. Qələbəni tamamlamaq üçün düşməndən daha ağıllı, güclü, tədbirli və fərasətli olmağımız əsas şərtdir. Yaxşı yaşamaq isə, tək özündən tutmuş, ailəyə, millətə qədər yaxşı idarəçiliklə mümkündür. Qalib xalqı yaramaz saydığı rejimdə yaşatmaq mümkün deyil və olmayacaq da. Bu mənada, biz indikindən daha yaxşı yaşamağa məhkumuq, - desək səhv etmərik.



## Və yaxud əgər hamımız bir gəmidəyiksə, yalnız özümüzü düşünmək nə fayda verə bilər?!



**Məmmədxan ƏZİZXANLI**

Yaxşı saydığımız hədəfə doğru iki cür getmək olar: birincisi, yuxarıdan, öz ağlınla, istəyinlə, sağlam düşüncəlilərin məsləhəti və dəstəyilə idarəçilikdə düzəlişlər etməklə, ikincisi, aşağıdan, böhranlarla, iğtişaşlarla, inqilablarla islahatlara məcbur edilməklə. Nə qədər çətin, ağrılı olmasından asılı olmayaraq, birinci üsul, yəni islahatlar, düzəlişlər yolu daha az itkilərlə başa gəldiyindən, sərfəli, ikinci üsul, yəni dağıntılar, ölüm, itim, inqilabla sonuclana bildiyindən sərfəsizdir.

Avropa ikinci yolu 232 il qabaq, inqilablar, dağıntılarla, keçməyə başlayıb və artıq çoxdandır keçib, dövri olaraq yaranan böhranlarını isə vaxtaşırı apardığı islahatlarla çözməkdədir. Avropada strateji düşünməklə tədbir görmə artıq institutlaşıb, ənənəyə çevrilib. Strateji düşüncəsi, baxışı olan toplumlar gələcəkdə yarana biləcək böhranları qabaqcadan hesablamaqla, gələcəkdə yaranacaq problemi bəri başdan həll etmiş olurlar. İndi Avropa, bütün əyər-əskikliyinə baxmayaraq təqribən bu üstün aşamadadır. Görəcək, yeni təcrübə bunu göstərir. Təbii ki, birincini seçənlər ağıllı, ikinciyə yol verənlərsə ağılsız sayılır. Hər iki seçimə yaxın tariximizdə yetərincə nümunələr olduğundan, adbad sadalamağa ehtiyac duymuram, sadəcə son yüz iyirmi ildə inqilabla və inqilabsız yaşayan ölkələrin durumunu xatırlamaq yetər. Əlbəttə, hər kəs öz kefinin bəyidir, yəni seçim özünündür, ağlı kəsən yolu seçə bilər, mən yalnız qısaca toplumun sosial çalxalanma tarixini xatırlatdım.

Bildiyimiz kimi, qələbəmizi həzm edə bilməyən düşmənlər - erməni, rus, fars, avropalı və onların içimizdəki yanlıları - revanşa hazırlaşırlar. Məğlubiyyətlə barışmayan ermənilərin yenə də hökmən rusun və Avropanın qərəzli qüvvələrinin açıq, farslarınsa üzdə etiraf edilməyən gizli köməyi ilə öz güclərini bir də sınayacaqları şəksizdir. Odur ki, bizi xaricdən müharibənin daha çətin davamı, daxildən isə 44 gündə yaranmış milli birliyi pozmaq yönündə pozucu hərəkətlər gözləyir, buna hazır olmalıyıq.

Bu hazırlıqda qardaş Türkiyə başda olmaqla, dostlarımızı bir daha bəlirləməli, qüvvələrimizi ikiqat gücləndirməli və türksoylu xalqlarla, dövlətlərlə münasibətlərimizi yaxşılaşdırmaqla ən modern, yeni idarəçilikdə Avropa Birliyindən də üstün keyfiyyətli Turan Birliyini qurmalıyıq...

Revanş, razılaşmaya zidd olaraq 01.12.2020-ci il tarixədək, erməni qoşunlarının ərazimizdən tam çıxarılmaması, minalanmış sahələrin xəritələrinin erməni tərəfindən bizə verilməməsi, atəşkəsdən sonra bizə qarşı terror aktlarının törədilməsi, rusların Qarabağda qanunsuz erməni separatçı idarəçiliyini bəsləmələri, özlərinin hədləri-ni aşaraq yerli hakimiyyət orqanı kimi çıxış etməklə suverenliyimizin bir qismini mənimsəmələri, bölgəyə ağır hücum döyüş silahları yığmaqla hərbi baza qurma cəhdləri, bir sözlə götürdükləri öhdəliklərə ermənilərlə yanaşı əməl etməmələri ilə xaricdən yallandırılmaqla düşmən əlinə işləyən "5-ci kolon" agentlərinin şəhid ailələrinə, qazilərimizə qarşı hər cür pislikləri - ağır şərtlər altında xidmət keçən əsgərlərimizin maaşını kəsməsi, techizatını mənimsəməsilə ordumuzun zəiflədilməsi, xəzinənin saxta sənədlərlə oğurlanması, bizim vergilərimizdən formalaşan və dövlət əmlakı adlanan bizim əmlakın müxtəlif adlarla, lazımsız yerə israf edilməsi, sabit maliyyə resurslarının xaricə daşınmaqla ölkədən çıxarılması, süni bahalaşma yaradılması, başqa sözlə ümumi gərginlik yaratmaqla - hökumətin xalqa qarşı qoyulması, vətəndaşlarınsa hökumətə qarşı qiyama hazırlanması cəhdi artıq başlanmışdır.

Bütün bu təxribatların qarşısını yalnız milli birliyi qorumaqla almaq olar. Milli birlik isə bölücü "obşak bratvaları" ilə yox, əksinə onların idarəçilikdən uzaqlaşdırılması və xalqın sağlam qüvvələrinin öz ətrafında birləşdirilib işlək, güclü mexanizmə çevrilməsilə qoruna bilər. Bu, həm də arzuladığımız ictimai nəzarətin daha da canlanması demək olardı...

### Milli birlik ən qiymətli sosial dəyərdir

Hökumət adından edilən özbaşnalıqlar bizi birgə yaşadığımız qürurlu qələbə sevincindən uzaqlaşdırdığı qədər də, düşmənə xidmət edir. Bu neqativlərə qarşı təkbaşına mübarizə mümkün deyil. Odur ki, islahatçıların, yenilikçilərin toparlanıb, şəbəkələnməsi və iqtidardakı dövlətçi, sağlam qüvvələrlə birləşməsi gərəkdir. Bu qüvvələrin təşəbbüskarlığından, özfəaliyyətindən əsla qorxmaq lazım deyil, əksinə onlara bu imkanı yaratmaq lazımdır. Çünki bu, onların sadəcə xarakteri, özünüifadə, yaşam tərzidir.

> Hökumət adından edilən özbaşnalıqlar bizi birgə yaşadığımız qürurlu qələbə sevincindən uzaqlaşdırdığı qədər də, düşmənə xidmət edir. Bu neqativlərə qarşı təkbaşına mübarizə mümkün deyil. Odur ki, islahatçıların, yenilikçilərin toparlanıb, şəbəkələnməsi və iqtidardakı dövlətçi, sağlam qüvvələrlə birləşməsi gərəkdir. Bu qüvvələrin təşəbbüskarlığından, özfəaliyyətindən əsla qorxmaq lazım deyil, əksinə onlara bu imkanı yaratmaq lazımdır.

Əgər dövlət başçısı istəsə bunu təşkil edə bilər və xalqla birlikdə özü də udar. Ancaq istəməsə və etməsə, ölkə istər-istəməz düşmənlərimizin içimizdə başsız qalan qaragüruhu körükləməsilə ikinci yola - qarşıdurmaya, inqilaba sürüklənə bilər. Qəbul etmək gərəkdir ki, bu gün hər cür qarışıqlıq - düşmənə köməkdir, ona görə də bütün problemlərin qanuna uyğun vicdanla çözməsinə çalışmaq lazımdır. Bu fikrimi qərəzçiliklə, hansısa sosial ədalətsizliyi müdafiə etmək kimi yozmaq lazım deyil. Sadəcə, problemləri vaxtında, partlamamış özümüz aradan qaldırmalıyıq.

Canımız, qanımız və malımız bahasına əldə edilən qələbəmizin sevincini başacan yaşamağa - öncə rus-erməni-fars-avropalı işbirliyi, ardınca onların içimizdəki şəbəkələnmiş pozucu "5-ci kolon"u mane oldu və olmaqdadır. Azərbaycan DTX bunu bir an belə unutmamalı, vaxtında tədbirini görməlidir.

44 günlük müqəddəs savaş bir imtahan kimi içimizdə "kimin kim olmasını" - əsgərimizin fantastik şücaətindən, xalqın kütləvi coşqusundan tutmuş, ta Prezidentin gözlənilməz, qırımlı çıxışlarına, düşmən qarşısında dik duruşunadək, çox şeyi, o cümlədən onun gərəkməz davamı olaraq, köhnə, ətalətli qaydada sürünməklə yaşamağın və inkişafın mümkün olmamasını ayarladı və göstərdi.

Biz indi tənqidçilərimizin hansının haqlı və səmimi, hansınınsa haqsız və qərəzli olmasını daha aydın görə bilirik. Onu da görürük ki, sən demə səmimi və haqlı tənqidçilərimiz düşmənimiz yox, bizi ən çox istəyən dostlarımızmış... Deməli, bundan sonra ayırıcıları yox, daha çox bizi birləşdirən amilləri, faktorları, kimsələri vurğulamalı və önə çəkməliyik. Qərəzli və haqsız tənqidçilərimiz isə, gördüyümüz yaxşı işlərin fonunda çox aydın və cılız görünməklə layiqli qiymətini alacaq, yəni müdafiəsiz qalıb, toplumun içində əriməklə neytrallaşacaqdır. Demək, əsas yaxşı işləməkdir, qalanları təfərrüatdır, yəni sonrakı dərəcəli xırdalıqlardır. Pislik pisi doğurduğu kimi, bünövrə kimi qoyulan yaxşılıq da yaxşılıq doğuracaqdır.

Bu qələbəni aşağı, yuxarı hərə öz xidmətinə uyğun olmaqla hamımız göz dolusu yaşamağa haqlıyıq. Azərbaycan Ordusu xalqımızın hərbi sahədə görünən tərəfidir, onun yaradıcısı da, azadlıq yolunda qurban verən də ata, ana - xalqdır. Ordusunu qalib edən ata, ana - xalq kimi ən yaxşı yaşamağa da haqqımız çatır.

Unutmayaq, generalsız əsgər çox uzağa gedə bilməsə də, ən azı özünü qoruya və zamanla içindən bir sərkər generalı yetirə bilər, əsgərsiz general isə, sadəcə olmur. Olmayansa, kimsəyə gərək olmur. Çox ibrətamiz bir deyim də var: - öz ordusunu yaxşı yedirtməyən xalq özgə ordunu daha yaxşı yedirtməyə məcbur edilər. Necə ki, 71 il bizə qənim kəsilən Sovet İşğal Ordusunu artıqlaməsilə yedirtməli, İkinci Dünya (1939-1945) müharibəsində Sovet Ordusunun yanacağının 85%-ni təmin etməli olmuşduq...

***(Ardı var)***